

Azərbaycan, Türkiyə və Türkmənistan xarici işlər nazirlərinin Antalyada keçirilən üçüncü üçtərəfli görüşün nəticələrinə dair bəyanat imzalanıb.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən AzNews.az-a verilən məlumatda bildirilir.

Tərəflər görüşdə ortaq tarix və mədəni birlikdən öz qüvvəsini əldə edən dostluq, qardaşlıq, mehriban qonşuluq və qarşılıqlı fayda əsasında davam etdirilən əlaqələrin daha da inkişafı istiqamətindəki iradələrini bir daha təsdiqləyiblər.

Xarici İşlər Nazirləri səviyyəsində keçirilən sayca üçüncü görüşün üç ölkə arasındakı əlaqələrin və əməkdaşlığın inkişafına verdiyi töhfədən duyulan məmnuniyyət ifadə edilib və əməkdaşlığın konkret layihələr əsasında daha da inkişaf etdirilməsi üzrə iradələrin olduğu xüsusilə vurğulanıb.

Nazirlər 26 may 2014-cü il tarixli "Bakı Bəyanatı" və 29 yanvar 2015-ci il tarixli "Aşqabad Bəyanatı"na sadiqlik təsdiqlənərək "Aşqabad Bəyanatı"nın əlavəsini təşkil edən "2015-2017-ci illər üçün Azərbaycan-Türkmənistan-Türkiyə əməkdaşlığının Çərçivə Proqramı" kontekstində görülən işlərlə bağlı fikirlərini bildiriblər.

Azərbaycan, Türkiyə və Türkmənistan Prezidentləri arasında 2015-ci ilin oktyabr ayında Türkmənistanda keçiriləcək Zirvə Toplantısına hazırlıq işləri müzakirə edilib.

Azərbaycan, Türkiyə və Türkmənistan arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumunun və Azərbaycan, Türkiyə və Türkmənistan arasında enerji sahəsində əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumunun Yüksək Səviyyədə keçiriləcək görüş zamanı imzalanması məqsədilə sözügedən layihələrin razılaşdırılması üzrə tamamlanma işlərin aparılmasının önəmi qeyd edilib.

Regionda sülh və sabitliyin təmin olunması ilə bağlı üzərlərinə yeni məsuliyyətlərin düşdüyünü qəbul edərək, mövcud əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səylərin artırılmasının davam etdiriləcəyi bəyan edilib.

Dövlətlərin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmət və dəstək bir daha təsdiq edilib. Tərəflər qlobal və regional sülh, təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi məqsədi ilə Birləşmiş Millətlər Təşkilatı başda olmaqla, beynəlxalq və regional təşkilatlarda mövcud olan yaxın və faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi və bu təşkilatlarda namizədliklərinin qarşılıqlı şəkildə dəstəklənməsi üzrə mövqelərini davam etdirməyə dair iradələrini bəyan ediblər.

BMT çərçivəsində mühüm təşəbbüslərdən biri olan Sivilizasiyalar Alyansı daxilində sivilizasiyalararası dialoqun gücləndirilməsi və qarşılıqlı hörmət mühitinin yaradılması məqsədilə əlaqələndirilmiş fəaliyyətlər təkmilləşdirilməklə davam etdiriləcəyini və Alyansın 2016-cı ildə

Bakıda keçiriləcək VII Qlobal Forumunun uğurlu alınması üçün əməkdaşlıq ediləcəyi bildirilib.

“Asiyanın ürəyi” bölgəsində sülh və sabitliyin möhkəmləndirilməsi məqsədi ilə təsis olunan İstanbul Prosesi çərçivəsində fəal əməkdaşlığın davam etdirilməsində tərəfdar olduqları təsdiqlənib.

Terrorizmin bütün forma və təzahürləri ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın ilk sıralarında yer aldıqlarını, xoş mərama əsaslanan və multikultural tarixi irsi ilə sivilizasiyalararası dialoq səylərini fəal şəkildə dəstəklədiklərini, həmçinin İslamofobiya, irqçilik və ayrı-seçkiliyin digər bütün təzahürləri ilə mübarizənin davam etdirilməsi məsələsində qətiyyətli olduqları təsdiqlənib.

İqtisadi və ticarət sahəsindəki əlaqələrin genişdirilməsi məqsədilə dərin və geniş əhatəli əməkdaşlığın təşviqi üzrə birgə səylərin gücləndirilməsinin vacibliyi qeyd edilib. Tərəflər bu kontekstdə qarşılıqlı investisiyaların həcminin artırılması istiqamətində üç ölkənin dövlət və özəl sektoru arasındakı əməkdaşlığı inkişaf etdirməyə və qarşılıqlı məlumat mübadiləsinin davam etdirilməsinə hazır olduqlarını bildiriblər.

Turizm, səhiyyə, kənd təsərrüfatı, qabaqcıl texnologiya, sənaye, informasiya və kommunikasiya texnologiyaları, neft-kimya, qida sənayesi, nəqliyyat infrastrukturu, aqrar tədqiqat və davamlı inkişaf sahələrində əməkdaşlığı möhkəmləndirmək məqsədi ilə bilik və təcrübə mübadiləsini, tədqiqat və istehsal ilə bağlı birgə təşəbbüsləri, aqrar ticarəti və investisiyaların artırılmasının dəstəklənməsi məsələsində razılığa gəlindiyi bildirilib. Üç ölkənin kiçik və ortahəcmli müəssisələri arasında konstruktiv əməkdaşlığın davamlı şəkildə və qətiyyətlə aparılması ilə bağlı ümumi mövqenin olduğu ifadə edilib.

Enerji sahəsində nail olunacaq birgə əməkdaşlığın qlobal və regional sülh və sabitliyə töhfə verəcəyini qeyd etməklə, Türkmən və Azərbaycan təbii qazının Türkiyə üzərindən keçməklə Avropaya və beynəlxalq bazarlara nəqlinin əhəmiyyəti vurğulanıb.

Türkmənistan qazının Azərbaycan və Türkiyə ərazilərindən keçməklə Avropaya nəqli layihəsində üçtərəfli formatda işçi qrupun yaradılmasının xüsusi əhəmiyyət kəsb etdiyi bir daha qeyd edilib.

Üç ölkənin enerji şirkətləri arasında əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi qeyd edilməklə bu konteksdə üçtərəfli formatda görüşlərin keçirilməsinin mühüm əhəmiyyətə malik olduğu vurğulanıb.

Üç ölkənin potensialından maksimum səviyyədə istifadə edilməsi məqsədi ilə Türkmənistan, Azərbaycan və Türkiyə üzərindən keçən nəqliyyat dəhlizlərinin əsas ticarət marşrutuna çevrilməsi üçün əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Xəzər dənizində nəqliyyat daşımalarının sadələşdirilməsi və xərclərinin azaldılmasına nail olmaq üçün limanların gücü, infrastrukturu və logistika imkanlarının inkişaf etdirilməsi ilə multimodal daşımaları əlverişli edəcək şərtlərin qarşılıqlı təmin olunmaqla yaradılması və dəstəklənməsi məqsədi ilə dövlət və özəl sektorun əlaqədar idarə və təşkilatlarının mütəmadi görüşlər keçirməsinə ehtiyac olduğunu qeyd edərək, bu çərçivədə Azərbaycan, Türkiyə və Türkmənistanın bütün əlaqədar idarə və təşkilatlarının iştirakı ilə üçlü formatda iclasınmümkün olan ən qısa zamanda keçirilməsinin faydalı olacağı bildirilib.

İstanbul Boğazının altından keçən Marmaray layihəsinin, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin, Xəzər dənizində Azərbaycanın Ələt və Türkmənistanın Türkmənbaşı limanlarının region iqtisadiyyatının inkişafına mühüm töhfə verəcəyi qeyd edilib.

Nəqliyyat sahəsindəki əməkdaşlığın inkişaf etdirilməsi və üç ölkənin bu sahədə malik olduğu potensialdan tam şəkildə istifadə edilməsi məqsədi ilə Əfqanıstan - Türkmənistan -Azərbaycan Respublikası – Gürcüstan - Türkiyə Respublikası" nəqliyyat dəhlizinin yaradılması məsələsi nəzərdən keçirilib.

Xarici İşlər Nazirlərinin növbəti üçtərəfli görüşünün Azərbaycanda keçirilməsi qərara alınıb.